| Vahid İdarəetmə Sistemi<br>ISO 9001/14001<br>OHSAS 18001 | **İnsan Resursları üzrə Şirkət Siyasəti** | | | | NORM<br>ƏSL SEMENT |
|---|---|---|---|---|---|
| Sənədin № | NSZ-IRA -PLC-001 | Yayım Tarixi: | 28.10.2019 | Təftiş №/Tarixi: | 20.07.2020 |

Biz işçilərimizin şəxsi hüquqlarından tam və düzgün istifadə etməsinə imkan yaradırıq, onlara vicdanla və ədalətlə yanaşır, ayrı-seçkilikdən uzaq, təhlükəsiz və sağlam iş şəraiti təmin edirik.İnsan kapitalının inkişafı üçün imkan yaratmaq məqsədilə lazımi səy göstəririk, sosial maarifləndirmə apararaq öz təşəbbüsləri ilə müvafiq sosial və ictimai fəaliyyətlərin yerinə yetirilməsində onlara dəstək olur, onların şəxsi həyatları ilə peşə həyatlarına hörmətlə yanaşırıq. İş və şəxsi həyat balansının qorunması, işçilərin asudə vaxtlarının səmərəli keçirə bilməsi üçün bütün mümkün imkanlar yaradılır.

Şirkətimiz hər kəs üçün ədalətli iş şəraitinin yaradılması və saxlanmasını prioritetlərimizdən biri hesab edir.İşçilərə hörmətlə yanaşılan və bütün qayda-qanunlara riayət olunan ədalətli,sağlam və təhlükəsiz iş şəraitini yaratmaqda məqsəd əməkdaşlarımızın işə olan sədaqətini yaxşılaşdırmaq və gücləndirməkdir. Onların bilik və bacarıqlarının davamlı inkişafı isə ən mühüm prioritetlərimizdəndir.

Şirkətimiz sement istehsalı sahəsində yeni mütəxəssislərin hazırlanması ilə qeyri-neft sektorunun inişafına töhvələr verməkdədir.

Ən yeni və müasir idarəetmə tərzinə sahib olan Şirkətimiz,qoyulan hədəflərimizə çatmaqda bizə köməkçi ola biləcək,yaradıcı,etibarlı, nəticə yönümlü,maraqlı tərəflərə dəyər qatan İnsan kapitalını tamamilə obyektiv dəyərləndirmə metodları ilə seçir.İşə qəbul prosesi zamanı namizədlər peşə və ixtisasına uyğun vəzifələr üzrə dəyərləndirilir.

AZƏRBAYCAN RESPUBLİKASI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ NORM OPEN JOINT-STOCK COMPANY AZERBAIJAN REPUBLIC

**Baş İcraçı Direktor** **Henning Sasse**

**İnsan Resursları və Administrativ İşlər üzrə Müdir** **Arzu Abdullayeva**

Garadagh district, Umid settlement, Salyan highway,
Sangargaya - 1 road, 7-th km 1. Baku, Azerbaijan
T: +994 12 310-10-10 / F: +994 12 310-10-20
www.norm.az